Rasim Ocaqov fenomeni

Rasim Ocaqovla birgə işləyən rejissor Zəfər Murtuzovun onun haqqında bilmədiyimiz, yazılmayan maraqlı fikirləri, xoş təəssüratları, sevgi dolu xatirələri

Azərbaycan xalqının bir çox nəsilləri kino ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edibdir. Mədəniyyətə qovuşubdur.

Heydər Əliyev

Zəfər Murtuzov haqqında qısa arayış

"Tərəqqi" medallı, kinorejissor Zəfər Nəbi oğlu Murtuzov. Bu ad və soy ad Azərbaycan incəsənət aləmində, kino dünyasına çox yaxşı tanışdır. Azərbaycan Milli kinosunun rejissura sahəsində böyük xidməti olan sənətkarlarından biridir Zəfər Murtuzov. O, artıq bu sahədə 48 ildir ki, kinomuza yüksək səviyyədə xidmət edir. Çoxlu kinomuzun ərsəyə gəlməsində böyük işlər görüb.

Mənim Zəfər bəylə tanışlığımın və dostluğumuzun tarixçəsi 1971-ci ildən başlayır. Belə ki, biz həmin il Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Dövlət Mədəniyyət və İncəsənət Universitetinin) dram və kino aktyorluğu fakültəsinə daxil olmuşuq. Həmin vaxtı üç tanınmış sənətkar kurs yığırdı. SSRİ Xalq artisti Adil İsgəndərov (assistenti Vaqif Ağayev), SSRİ Xaqlartisti Mehdi Məmmədov (assistenti Ədalət Ziadxanov) və həmin vaxtı Moskvada A.V. Lunakarski adına Dövlət Teatr Sənəti İnstitutunun pedaqogika fakültəsini yüksək qiymətlərlə bitirib, Azərbaycana qayıtmış Əməkdar incəsənət xadimi Fikrət Sultanov.

Zəfər bəy, sonralar aktyor kimi tanınan Telman Adıgözəlov, Şahmar Qəribli, Əligüşad Rəhimov, Elxan Qurbanovla birlikdə Adil İsgəndərovun sinifində, mən isə Mehdi Məmmədovun sinifində təhsil alırdıq. Yalnız sənət dərslərimiz ayrı idi. Qalan dərsləri bir yerdə keçirdik. Sənət dərslərimizdə Adil İsgəndərovun və Mehdi Məmmədovun sinifləri arasında yaxşı mənada yarış gedirdi, rəqabət vardı ki, o sənətkarlardan kim yaxşı aktyorlar yetişdirəcək. Bizim kursdan da sonralar Hüseynağa Atakişiyev, Şükufə Yusupova, Gülşad Bakşıyeva, Mirzə Ağabəyli, Əlican Əzizov kimi maraqlı aktyorlar yetişdi. Fikrət Sultanovun kursundan da Qəmər Məmmədova, Məhərrəm Musayev, Novruz Cəfərov, Nadir Hüseynov, Sabir Məlikov da maraqlı aktyorlar kimi tanındılar.

Təhsil aldığımız elə ilk günlərdən biz, Zəfər bəylə dostlaşdıq. Çünki məlum oldu ki, Zəfər bəygilin və bizim ailə Nadir şahın vaxtında şahsevənlər adı ilə onun qəzəbindən qorunmaq üçün Ərdəbildən Cəlilabada və Masallıya köçüblər və oradə məskunlaşıblar.

... Dörd illik təhsildən sonra hər üç kursu 1975-ci ildə yenicə yaradılmış Şəki Dövlət Dram Teatrına təyinatla göndərdilər. Amma həmin vaxtı Zəfər Murtuzov Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Kino-Studiyasında işləməyə dəvət olunmuşdu. Ona görə də iki aydan sonra Dövlət Kino-Studiyasının tələbnaməsi ilə geri qayıtdı və orada rejissor assistenti kimi işləməyə başladı. Mən də altı aydan sonra Hüseyn Ərəblinski adına Sumqayıt Dövlət Dram Teatrına dəvət olunub, aktyor kimi öz işimi orada davam etdirdim. Aktyor işimlə parallel Sumqayıtın tarixində ilk dəfə olaraq, "Ümid" adlı Teatr-Studiya yaratdım. Az bir vatdan bu kollektiv, Sumqayıt Gənclərinin Xalq Teatrı oldu. Sonra Moskvaya gedib A. V. Lunakarski adına Dövlət Teatr Sənəti İnstitutunda rejissor təhsili aldım. Oradan təyinatla Əbdürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrına quruluşçu rejissor göndərildim. Az bir vaxtda bu teatrın bədii rəhbəri-direktoru oldum. Bu işdə həmin vaxtı Ağdam rayon partiyə komitəsinin birinci katibi, böyük ziyalı Sadıq Murtuzayevin və Mədəniyyət naziri, böyük ziyalı Zakir Bağırovun çox köməklikləri oldu. Sonra Sumqayıt şəhərinin partiya komitəsnin birinci katibi, mərhum Zülfü Hacıyevin dəvətilə iş yerim Sumqayıta dəyişildi və bu teatrın bədii rəhbəri- direktoru işlədim. On il bu teatra rəhbərlik edəndən sonra Dağıstana gedib, orada Dağıstan-Azərbaycan Beynəlmiləl Teatr Truppasını yaratdım. Üç il bu kollektivə rəhbərlik etməklə Dağıstan-Azəbaycan xalqları arasında böyük dostluq körpüsü yaratdım. 1950-ci ildə bağlanmış Dağıstan Azərbaycan Dövlət Dram Teatrının yenidən bərpa olunmasında çox iş gördüm... (Seyid Qurbanov, Hüseynbala Hüseynov və Məhəmməd Qurbanovla birlikdə).

Yenidən Azərbaycana qayıdıb, Dövlət Gənclər və Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında quruluşçu rejissor kimi öz işimi davam etdirdim. Bu gün də Gənc Tamaşaçılar Teatrının quruluşçu rejissoru kimi tamaşalara quruluş verirəm.

Bədii yaradıcılıqla, publisistika ilə ciddi məşğul oluram.

Zəfər Murtuzov isə elə ilk gündən özünün işgüzarlığına, yüksək təşkilatçılığına, dərin təəvyüülünə, aktyorlarla yaxşı işləmək bacarığına görə kinofilm çəkən quruluşçu rejissorların sevimlisi oldu. Çünki aktyorların rollara uyğun tapılmasında, çəkiliş meydançasının, pavilyonun hazırlanmasında, aktyotlrala rol üzərində işdə rejissor assistentinin, əsasən də ikinci rejissorun xidməti daha çox olur. Belə götürəndə kinofilmin ikinci rejissorunun işi heç də quruluşçu rejissorun işindən az olmur. Amma çox vaxt kölgədə qalır. Lakin Zəfər Murtuzovun təşkilatçılığına, bacarığına, təfəkkürünə görə kölgədə qalmadı. Az bir vaxtda rejissor statına keçirildi. Beləliklə, onun ikinci rejissor olduğu kinofilmlər uğur qazananda, bu işdə Zəfər Murtuzovun da böyük xidmətləri olduğu deyilirdi və yazıldı.

Zəfər bəyin Heydər Əliyevlə bağlı kino çəkmək arzusu necə reallaşdı

Zəfər Murtuzovun incəsənət aləminə gəlişi də çox maraqlı olub. O, bu haqda belə dedi:

-Məndə incəsənətə, teatra, kinoya maraq, istək lap yeniyetməlik illərimdən, orta məktəbdə oxuduğum vaxtdan başlayıb. Yüksək natiqlik qabiliyyətinə malik insanları və aktyorları çox sevirdim. Həmin natiqlik qabiliyyəti yüksək olan insanlardan biri də ulu öndər Heydər Əliyev olub. Yadımdadır ki, Ulu Öndər 1969-cu ildə Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi seçilmişdi. Birinci katib olduğu elə ilk günlərdən demək olar ki, tez-tez rayonları gəzirdi. Orada olan işlərlə, problemlərlə, insanların güzəranı ilə yaxından tanış olurdu. Bilirsiniz ki, dahi rəhbər Heydər Əliyev hakimiyyətə gəlməmişdən əvvəl Azərbaycanda kənd təsərrüfatı bərbad vəziyyətdə idi. Üzümçülüyün, pambıqçılığın vəziyyəti daha ağır idi. Ona görə də SSRİ rəhbərliyi üzümçülüyü Azərbaycandan alıb, Gürcüstana, Moldovaya vermək istəyirdi. Pambıqçılığı da Özbəkistana vermək planlaşdırılmışdı. Neftimizi isə Rusiya öz tabeçiliyinə götürmək istəyirdi. Azərbaycan yalnız maldarlıq, tərəvəzçilik, meyvəçilik ölkəsi olacaqdı. Bununla da insanlarımızın güzərarı dözülməz dərəcədə ağır olacaqdı. Ulu öndər Heydər Əliyev də bilirdi ki, kənd təsərrüfatından və əsasən də üzümçülükdən, pambıqçılıqdan düzgün istifadə olunması məmləkətimizə çox böyük gəlir gətirə bilər. Ona görə də hakimiyyətə gəldiyi ilk gündən kənd təsərrüfatının bütün sahələrinə və əsasən də üzümçülüyə və pambıqçılığa daha çox fikir verməyə başladı. Az bir vaxtda da bu sahələr və başqa sahələr çox böyük sürətlə inkişaf elədi. Dahi rəhbər həmin vaxtı hakimiyyətdə olduğu cəmi iki ildə Azərbaycan iki milyon yarım ton üzüm, bir milyon tondan çox pambıq istehsal eləməyə başladı. Təkcə Şamaxı rayonu Moldova respublikadından çox üzüm istehsal eləyirdi. Az zamanda Azərbaycana böyük maliyyə gəlirləri gəldi və respublikamız az bir vaxtda SSRİ respublikaları arasında birincilərdən biri oldu.

Həmin vaxtı əbədiyaşar Prezidentimiz mənim doğulduğum Cəlilabad rayonuna da gəlmişdi. O vaxt mən onuncu sinifdə oxuyurdum. Dahi rəhbərin belə bir şəkəri vardı. Heç bir rayon rəhbərinin tərifli fikirlərinə, əvvəlcədən tərif demək üçün öyrədilmiş, seçilmiş adamlara qulaq asmırdı. Demək olar ki, rayonun bütün əhalisi ilə görüşür, onların problemlərini səbrlə dinləyir və sonra özü yüksək səviyyədə, çox maraqlı fikirlərlə, yüksək natiqlik qabiliyyətilə danışırdı. Onun bu çıxışları sözün həqiqi mənasında insanları öz təsirinə salır və ona camaatımızın marağı, istəyi, sevgisi çox artırdı. Çünki artıq hər sahədə haqq, ədalət bərpa olunur, mozunlar ali məktəblərə öz biliklərilə qəbul olunur, insanların güzərarı yaxşılaşırdı. Ona görə də dahi rəhbərə inam çox böyük idi. Beləliklə, insanlarımızda böyük maraq vardı ki, onunla daha yaxında tanış olsunlar. Onu canlı görsünlər. Təmasda olsunlar. Dahi rəhbər çox maraqla, yüksək natiqlik qabiliyyətilə danışırdı və adamlar da ona maraqla qulaq asırdılar. Həmin vaxtı

Cəlilabadın mərkəzindəki böyük parkda minlərlə insan toplaşmışdı. Rayonun birinci katibi Əli Əliyev idi. Mən və bir neçə həmyaşıdım ağaca çıxıb, bu mənzərəni maraqla seyr edirdik. Birdən Ulu Öndərin gözləri bizə sataşdı. Yanında dayanan rayon partiya komitəsinin birinci katibi Əli Əliyevə işarə elədi ki, o uşaqları ağacdan düşürün və mənim yanıma gətirin. Bizi acağdan düşürüb, onun yanına gətirdilər. Dahi rəhbər bir ata novazişilə bizim başımızı sığalladı, gülümsündü və dedi: " Ağaca çıxmaq lazım deyil. Yıxılıb əzilərsiniz". Biz də uşaq sadəlövlüyü ilə dedik ki, "sizi görmək üçün ağaca çıxmışdıq və sizin danışığınıza qulaq asmaq istəyirdik". Bizim bu sözlərimizdən sonra dahi rəhbər özünəməxsus güldü və bizi qucaqladı. Təxminən on dəqiqə bizimlə çox mehriban söhbət elədi. Dedi ki, dərslərinizi yaxşı oxuyun. Bizdən soruşdu ki, biz orta məktəbi bitirəndən sonra hara qəbul olmaq istəyirik. Mən dedi ki, rejissor olacam və sizin haqqınızda kinofilm çəkəcəm. Sonra yenə də güldü və dedi: "Lap yaxşı". Yenə də məni qucaqladı. Sonra bizi arxaya çəkdilər. Bu, mənim onunla ilk görüşüm oldu. Həmin görüş, onun baxışları, nurani sifəti, ata mehribançılığı əbədi yaddaşımda qaldı.

Böyük Tanrının istəyilə mənim onunla ikinci görüşüm isə ali məktəbi bitirib, Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Kino-Studiyasında işlədiyim vaxtı, 1978-ci ildə Ulu Öndərlə bağlı, onun işi, yaradıcılığı haqqında Rüstəm İbrahimbəyovun yazdığı ssenari əsasında, Rasim Ocaqovun quruluşçu rejissoru olduğu "İstintaq" kinofilmində oldu. Mən həmin kinofilmdə rejissor assistenti idim. Bir il həmin kinofilmin çəkilişi getdi. Sonra "İstintaq" kinofilminə özü baxdı və çox bəyəndi. Həmin vaxtı təkilif elədi ki, kinofilmin əvvəlində onun Azərbaycan Respublikası Mərkəzi Komitəsinin birinci katibi seçildiyi vaxtı dediyi nitqindən bəzi fikirləri əlavə edək. Onun bu maraqlı fikirlərini Rüstəm İbrahimbəyov bədii

formada yazdı və kinofilm başlayanda ekran arxasından aparıcı dedi. Bu maraqlı, məzmunlu fikirlər "İstintaq" kinofilminin dəyərini, bədiliyini, məzmununu bir az da artırdı. Elə kinofilmin əvvəlində aparıcının dilindən deyilən bu sözlər və ssenarinin peşəkar yazıldığını, quruluşçu rejissorun yüksək peşəkar işini və aktyor oyununu az bir vaxtda SSRİ məkanında ən maraqlı kinifilmlərdən biri elədi. Böyük tamaşaçı marağına səbəb oldu və bu kinofilm SSRİ dövlət mükafatına layiq görüldü.

Mənim ulu öndər Heydər Əliyevlə üçüncü görüşüm, dahi rəhbər Moskvadan Naxçıvana qayıdandan sonra Muxtar Respublikanın Ali Sovetinin sədri olandan oldu. Həmin vaxtı meydan hərəkatı idi. O vaxt mən Naxçıvana gedib, dahi rəhbərlə müsahibə götürdüm və onunla bağlı sənədli film çəkdik. Həmin vaxtı Ulu Öndərə onu ilk dəfə Cəlilabadda gördüyümü və gələcəkdə rejissor olub, onun haqqında film çəkəcəyimi yadına saldım. "İstintaq" kinofilmindəki işimizi xatırlatdın. Və ona elə həmin vaxtdan ilahi məhəbbətimin olduğunu bildirdim. Ulu Öndər mənim bu sözlərimdən məmnun oldu və dedi: "Çox sevindim ki, sən artıq arzularını reallaşdırırsan. Öz arzularını reallaşdıran gənclərimizi çox sevirəm".

Tale elə gətirdi ki, əbədiyaşar Prezidentimiz Heydər Əliyevdən sonra onun varisi cənab İlham Əliyev prezident olandan sonra, onun əmrilə 2018-ci ildə mənə kino sahəsindəki xidmətlərimlə bağlı "Tərəqqi" medalı verildi.

Ona görə də keçmiş həyatımı vərəqləyəndə, kinofilm kimi yadıma salanda görürəm ki, mən şanslı insanam. Ulu öndər Heydər Əliyevlə bağlı kino çəkmək arzumu reallaşdırmışam. Və ömrümün 31 ilini dahi rejissor, maraqlı ssenarist, böyük insan, təpədən dırnağa qədər ziyalı Rasim Mirqasım oğlu Ocaqovla bir yerdə işləmişəm. Onun sayəsində kino aləmində çox şey öyrənmişəm. Yuxarıda dediyim fikirlər də mənə Rasim müəllimlə bağlı xatirələrimi demək üçün bir körpü və başlanğıc idi. Bu gün Azərbaycan kinosunda yaşlı insanlar çox az qalıb. Şəfiqə Məmmədova, Oqtay Mirqasımov, Rasim Balayev, Şeyx Əbdül Mahmudov, Hacı İsmayılov, Ənvər Həsənov, Fəxrəddin Manafov, Şükufə Yusupova, mən və bir neçə nəfər. Biz də canlı tarixlərik. Mən Rasim Ocaqovla, Tofiq İsmayılovla, Şeyx Əbdül Mahmudovla, Fikrət Əliyevlə də işləmişəm. Doğrudur. Mən özüm müstəqil rejissor kimi kinofim çəkməmişəm. Amma çoxlu kinofilmlərdə ikinci rejissor olmuşam. Bilirsiniz ki, ikinci rejissor da kinofilmin bel sütunudur. Aktyorları seçmək, gətirmək, onlarla obraz üzərində işləmək, sözalti mənaları tapmaq, mizansları qurmaq və meydançanı, pavilyonu qurmaq ikinci rejissorun işidir. Qurluşçu rejissorun işi meydançaya gəlib, "mator" sözünü deməkdir. Əlbəttə, mən burada quruluşçu rejissoru kölgədə qoymaq, ikinci rejissoru uclatmaq istəmirəm. Bütün kinofilmin cavabdehliyi, taleyi, uğuru və uğursuzluğu quruluşçu rejissorun olindədir. Yəni kinofilmin Allahı odur. İkinci rejissor da quruluşçu rejissorun kinofilmdə qoyduğu ali məqsədi reallaşdırmaqla, onun tövsiyyəsilə, bilavasitə rəhbərliyi ilə aktyorlarla, aktrisalarla rol üzərində işləyir. Yəni quruluşçu rejissorun fikirlərini reallaşdırır ki, çəkiliş vaxtı ona çətinlik olmasın. Özü də Rasim Ocaqov kimi rejissor sənəti mükəmməl bilən, özü yaxşı pedaqoq olan, hər obrazın özəyini dəqiqi tapan böyük sənətkarın yanında ikinci rejissor olmaq böyük xoşbəxtlik idi. Uzun illər onunla işlədiyimə görə bilirdim ki, Rasim müəllim bu epizodda nə istəyir və ümumiyyətlə kinofilmi necə görür. Çünki o, hələ çəkilişə başlamamış, artıq kinofilmi beynində, təəvyüüllündə tam görürdü. Ona görə də işə başlayanda bilirdi nə çəkir və necə çəkir.

"İstintaq" kinofilmində Rasim Ocaqov fenomeni

-Çox sağ olun ki, yuxarıdakı maraqlı fikirləri dediniz və bu maraqlı söhbət də Rasim Ocaqovla bağlı müsahibəmizə bir açar, körpü oldu. Bizim bugünkü söhbətimiz əlbəttə, bütövlükdə Rasim Ocaqov və onun yaradıcılığı, ustad sənətkarlığı haqqında olacaq. Bu gün 2023-cü ilin avqust ayının 4-ü tarixidi. İki gün bundan qabaq, Azərbaycan Milli kinosunun 125 illiyi Nizami Kino Mərkəzində oldu. Siz də, mən də həmin tədbirdə iştirak edildik. Yəqin elə bu gün, bu saat dahi sənətkar Rasim Mirqasım oğlu Ocaqovun ruhu da burada, bizim yanımızdadır. Bizim danışığımızı, söhbətimizi izləyir. Siz, ömürün 48 ilini Azərbaycan kinosuna həsr edən bir sənətkar kimi gələcək kinomuzun taleyini necə görürsünüz? Və bu gün əgər Rasim Ocaqov sağ olsaydı, bu sualı ona verməydim o, nə cavab verərdi?

- Mənə elə gəlir ki, mənim indi deyəcəklərimi o da belə deyərdi. Çünki mən onun "şinelindən" çıxmışam. Onun sənət aləmindəki tərbiyəsini almışam. Belə ki, mən kinomuzun gələcəyinə çox nikbin baxıram. Çünki cənab prezidentimiz İlham Əliyev bu sahəyə çox ciddi fikir verir. Yeni Mədəniyyət nazirimiz Adil Kərimli də kino sənayemizi dirçəltmək üçün çalışır. Kino sahəsində böyük təcrübəsi olan insanları dinləyir. Onların maraqlı fikirlərinə, təkliflərinə, məsləhətlərinə qulaq asır. Bilirsiz. 44 günlük Vətən müharibəsindəki qələbəmizdən sonra biz kino işçiləri də çox böyük işlər görməliyik. Çünki artıq gənc, istedadlı ssenaristlər, rejissorlar, operatorlar yetişir. Mən inanıram ki, tezliklə kino sənətimiz durğunluqdan çıxacaq. Əvvəlki kimi maraqlı kinofilmlər yaranacaq. Və bu kinofilmlər təkcə Azərbaycanda yox, xarici ölkələrdə də məşhur olacaq. Əlbəttə, Rasim Ocaqov sağ olsaydı, bu gənclərə çox köməklik edərdi. Onlara ustad dərsləri keçərdi.

-Mən də buna inanıram. Kinomuzun gələcəyinə nikbin baxıram. Çünki əvvəllər bu sahədə çox maraqlı, yüksək peşəkar sənətkarlarımız olub. Cavanlar onların həyatını, yaradıcılığını mükəmməl öyrənəcəklər və öz işlərində təbiq edəcəklər. İndi qayıdaq əsas mövzumuza. Rasim Ocaqovla sizin tanışlığınız və birgə işləməyiniz necə yarandı?

-Mən 1975-ci ildən "Azərbaycanfilm"ə rejissor assistenti vəzifəsinə işə götürülmüşəm. Elə həmin vaxtdan da Rasim Ocaqovla işləməyə başlamışam. 1994-cü ilə kimi bu vəzifədə işlədim. Sonra ikinci rejissor vəzifəsinə keçirildim. Rasim Ocaqovun çəkdiyi bütün kinofilmlərdə onunla işləmişəm. Əksər kinofilmlərində ikinci rejissor olmuşam. Bizim onunla üçüncü işimiz Rüstəm İbrahimbəyovun ssenarisilə çəkdiyi "İstintaq" kinofilmi olub. Ondan əvvəl isə "Qatır Məmməd" və "Tütək səsi" olub. Bu kinofilmlər haqqında sonra danışacam. İndi "İstintaq" haqqında danışım. Çünki bu kinofilmin necə yaranmasını çox insanlar yaxşı bilmir. Həmin kinofilmdə keçmiş Sovetlər Birliyində tanınmız aktyorlar Yevgeni Lebedev, Aleksandr Kalyagin, Şəfiqə Məmmədova, Həsən Məmmədov. Rasim Balayev və başqaları çəkilirdi. SSRİ Xalq artisti Yevgeni Lebedevlə mənim çox yaxşı münasibətlərim vardı. O, Sakt-Peterbuqda dahi rejissor Georgi Tovstanoqovun bədii rəhbər olduğu Böyük Dövlət Akademik Dram Teatrının aparıcı aktyoru idi. Çox istəyirdi ki, mən Sakt-Peterburqa gedim və orada Kino və Televizıya üzrə ali məktəbə qəbul olum. Orada oxuyum. Yevgeni Lebedev orada dərs deyirdi. Amma həmin vaxtı mənim kinostudiyada işlərim çox olduğuna görə gedə bilmədim. Biz bir il "İstintaq" kinofilminin çəkilişini apardıq. Rasim Ocaqov bütün gücünü həmin kinofilmə vermişdi və bizi də çox işlədirdi. Yuxarıda dediyim kimi bu kinofilm Ulu Öndərə və onun rəhbər kimi fəaliyyətinə həsr olunmuşdu. 1969-cu ildə dahi rəhbər hakimiyyətə gələndə respublikada olan anarxiyanı, çox dəhşətli qanunsuzluqları, səxavşkilləri, karrupsiyanı, rüşvəti təmizləmək üçün böyük iş aparırdı və bu kinofilmin də ali məqsədi bu idi. Aleksandr Kalyagin də müstəntiq Seyfi rolu ilə Heydər Əliyevin prototipini yaratmışdı. Mən sizə bir maraqlı fikiri deyim. Aleksandr Kalyagin həmin filmə çəkilmək istəmirdi.

-Maraqlıdı. Bunu mən də, oxucular da bilmirik.

-Çünki o, həmin vaxtı Moskvadakı dahi rejissorlar, "yaşama" məktəbinin banilərı Konstantin Sergeyeviç Stanislavskinin və Vladimr Neniroviç-Dançenkonun 1898-ci ildə yaratdıqları Bədae Akademik Dram Teatrında işləyirdi. Bu teatrda işləmək isə hər aktyora nəsib olmur. Onun teatrda işi həddindən artıq çox idi. Həm də "Mosfilm" də çox çəkilirdi. O, Bakya sıma çəkilişinə gəlmişdi. Burada Rüstəm İbrahimbəyovla, Rasim Ocaqovla söhbət elədi və dedi ki, "mən bir şərtlə çəkilişə gələ bilərəm ki, axşam tamaşamı oynayıram. Gəlirsiniz məni teatrdan götürürsünüz. Təyyarəyə minirəm. Gəlirəm Bakıya və səhərə qədər çəkilişdə oluram. Səhər saat 6-da yenə minirəm təyyarəyə və qayıdıram teatra. Saat 11-də də məşqində oluram". Əlbəttə ki, onlar buna razılaşdılar. Çünki bilirdilər ki, bu rolu Aleksandr Kalyagin kimi heç kim oynaya bilməz. Demək mən gedirdim Moskvaya. Orada təyyarəyə iki bilet alırdım. Sonra teatrda gözləyirdim. Aleksandr Kalyagin tamaşanı oynayıb qurtarandan sonra minirdik taksiyə. Gəlirdik Təyyarə limanına. Orada gecə 12-05 reysi olan təyyarəyə minib, Bakıya gəlirdik. Gecə saat ikidə Bakıda olurduq. Gəlirdik düz çəkiliş meydançasına. Səhər saat 7-yə qədər çəkiliş olurdu. Çəkilişdən sonra yenə gəlirdik Bakı Təyyarə limanına və uçurduq Moskvaya. O, gedirdi teatra və mən də Moskvada onu axşama qədər gözləyirdim və yenə də təyyarəyə minib Bakıya gəlirdik. Düz bir ay belə oldu. Sonra pavilion çəkilişləri Moskvada, "Mosfilm"də getdi. Orada da çəkilişləri axşam aparırdıq. Həmin kinofilmin çəkilişində bir də belə bir maraqlı iş oldu. Biz, hansı kütləvi səhnələri çəkirdikcə onları canlı çəkirdik. Toy səhnəsini də canlı çəkmişik. Çəkiliş bitəndən sonra kinofilmi Azərbaycan Mərkəzi Komitəsinə apardıq və dahi Heydər Əliyev baxdı. Kinofilm bitəndən sonra çox bəyəndi və dedi: "Hanı o rejissor?" Rasim Ocaqov ayaq üstə durdu. Onun şinli çox təriflədi və sonra yuxarıda dediyim təklifi verdi ki, ekran arxasından onun Mərkəzi Komitədə etdiyi çıxışdan bəzi epizodlar yazılsın və deyilsin. Artıq kinofilm bitmişdi. Gəldik kinostudiyaya. Və Heydər Əliyevin dediyi həmin sözlər yazıldı və kinofilmə əlavə olundu. Bu uğurlu işimizdən sonra bizim birlikdə çox işlərimiz oldu. Bundan sonra yenə də Rüstəm İbrahimbəyovun ssenarisi əsasında "Park" kinofilmini çəkdik.

-Deməli, "İstintaq" kinofilmindən sonra Rüstəm İbrahimbəyov və Rasim Ocaqov tandemi başladı. Elədirmi?

-Əslində onların ilk işi "Bir cənub şəhərində" kinofilmi ilə başlamışdı. Rasim Ocaqov həmin kinofilmin baş operatoru idi. Amma quruluşçu rejissor Eldar Quliyevlə demək olar ki, parallel işləyirdi. Hətta həmin kinofilmdə çoxlu səhnələr var ki, onları Rasim Ocaqov operator kimi Eldar Quliyevsiz çəkmişdi. Kinofilmin montajı vaxtı bu səhnələr həm Rüstəm İbrahimbəyovun və həm də Eldar Quliyevin xoşuna gəlib və kinifilmə daxil edilblər. Deməli, Rüstəm İbrahimbəyov və Rasim Ocaqov tandemi həmin kinofilmdən başlamışdı. "İstintaq"la tam reallaşdı və ondan sonra onların çoxlu müştərək işləri oldu. Bu kinofilmlər də Azərbaycan kino tarixinə çox böyük uğurlar gətirdi. Bu kinofilmlər təkcə xalqımız tərəfindən yox, keçmiş Sovetlər Birliyinin və xarici ölkələrin tamaşaçıları tərəfindən də çox sevildirdi.

- "Qatır Məmməd" kinofilmini rejissor kimi çəkməyi Rasim Ocaqova verilməsi necə oldu?

- Rasim Ocaqov Azərbaycan Dövlət İncəsənət İnstitutunda və Moskvada Dövlət Kinomatoqrafiya İnstitutunda iki illik rejissorluq təhsili alsa da ona kinofilm çəkməyə icazə vermirdilər. Buna görə onu on il kinostidyadan incik salmışdılar. "Qatır Məmməd" kinofilmini Hüseyn Seyidzadə çəkmişdi. Amma kinofilmi Moskva qəbul eləməmişdi. Bu kinofilmdə hadisələr yayda gedirdi. Artıq qışda bu kinofilmi Rasim Ocaqova verdilər. Plana uyğun olaraq, bu kinofilm ilin sonunda bitməli idi. Deməli, o, qışda yay səhnələri çəkməli idi. Biz qışda başladıq yay səhnələrini çəkməyə və kinofilm yaxşı alındı. Rasim Ocaqova rejissor kimi inam çox artdı. Bundan sonra Isa Hüseynovun ssenarisi əsasında "Tütək səsi" kinofilmini çəkdi. Sonra "İstintaq", "Park", "Bağlı qapı" , "Təhminə", "Ad günü", "Hət ticarət, həm ziyarət" " Otel otağı" və başqaları. O, on altı kinofilm çəkdi. "Həm ticarət , həm ziyarət" kinofilmi Şəkidə mənim qaynatamın evində, həyətində çəkilib. İndi ora bizim ev və həyətdir. Sizə bir sirri də açım. Rasim Ocaqov mənim qaynanamın xalası oğludur. Mən aile qurandan sonra bizim həm qohumluq və həm də sənət yollarımız birlikdə keçib. Son nəfəsinə qədər də mən Rasim Ocaqovun yanında olmuşam. Onu özümə ata əvəzi, böyük qardaş bilmişəm. Həyatda ondan çox şey öyrənmişəm. Əsasən də insanları sevməyi. Onlara inanmağı. Təmənnasız dostluq etməyi. Yaxşı təşkilatçı olmağı. Çoxlu mütalıə eləməyi. Ailəyə bağlı olmağı. Dövlətə, dövlətçiliyə sevgini, sadiqliyi mən ondan öyrənmişəm.



Rasim Ocaqov

(Ardı gələn sayımızda)

Ağalar İDRİSOĞLU,
Əməkdar incəsənət xadimi,
yazıçı-rejissor-dramaturq

Rasim Ocaqov - 90

(Portret cizgiləri)